# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA EKOLOGİYA SİYASƏTİ

**Aliyə Şirinova**

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Bakı*
*shirinova.aliya@gmail.com*

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həllinə də daim xüsusi diqqət yetirmişdir. O, ekoloji vəziyyətin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə və təbii sərvətlərdən səmərəli istifadəyə daim qayğı göstərmişdir. Onun hakimiyyəti illərində ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət yeni təkanla formalaşmağa başladı [1].

Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə, yəni 1969-1982-ci illərdə respublikada həyata keçirilən qlobal ekoloji tədbirlərin təşəbbüskarı və təşkilatçısı olmuşdur. Həmin illərdə ekologiya, təbiətin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə haqqında 8 qanun, o cümlədən KP MK-nın və Nazirlər Sovetinin 32 qərarı var idi. Heydər Əliyev Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması,

təbii sərvətlərdən səmərəli istifadə olunması sahəsində özünün məqsədyönlü siyasətini həyata keçirirdi. 1993-cü ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın tələbi və israrı ilə yenidən hakimiyyətə gələn Ulu Öndərimiz ekoloji problemləri bir daha vurğulamış, bununla bağlı mövcud ekoloji problemlərə xüsusi önəm vermişdir. Ətraf mühitin idarə edilməsi sisteminin inkişafı məqsədilə 2001-ci ilin mayında Ulu Öndərimizin Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Bir az sonra, 2003-cü ildə onun Fərmanı ilə "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişaf haqqında" və "Meşələrin bərpası və çoxaldılması haqqında" milli proqramlar təsdiq edilərək həyata keçirildi.

Ulu Öndər ölkəmizi gəzərkən, onun inkişafının əsas planlarını qurarkən ekologiyanı, təbiəti heç vaxt unutmadı. Çünki Allah-Təala bizə əlçatmaz təbii gözəlliklər bəxş etmişdir. Dünyanın ən böyük alimləri, ekoloqları ölkəmizdə səfərdə olmuş, bənzərsiz təbiətimizin füsunkarlığına heyran qalmışlar. Bütün dünya Azərbaycanı həm tarixi, həm də gözəlliyi baxımından ən nümunəvi coğrafi məkan hesab edir [2]. Bu səbəbdən də Heydər Əliyev Azərbaycanın təbiətinə xüsusi diqqət yetirir, onun təbii və ilkin bütövlüyünü daim qoruyub saxlamağı zəruri hesab edirdi.

*"İstəyirəm hamınız təbiətin mühafizəçisi olasınız". Heydər Əliyev*

Bu sözlər böyük dövlət xadiminin sadəliyi ilə yanaşı, möhtəşəmliyini, şəffaflığını ifadə edir. Çünki bu iş ardıcıl, müntəzəm və sistemli şəkildə aparılıb və yüksək nəticələr verib.

Ulu Öndərin ekoloji siyasəti ilə bağlı araşdırma edən mütəxəssislər qeyd edirlər ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanda yaxşı ekoloji mühit yaratmaq dövlət siyasətinin prioritet məsələlərindən biridir. O, ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bütün mühüm tədbirlərin vaxtında həyata keçirilməsi üçün addımlar atdı.

Mütəxəssislər Ulu Öndər Heydər Əliyevin davamlı inkişaf prinsiplərinə əsaslanaraq respublikamız üçün aktual olan ekoloji problemlərin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini vurğulayırlar [3]. Bunlardan biri də 2001-ci ildə Heydər Əliyevin Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasıdır. Heydər Əliyevin Fərmanı ilə yaradılmış nazirlik respublikada ekoloji problemlərlə bağlı işlər aparır.

Qeyd edək ki, "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədilə ölkənin gərgin ekoloji vəziyyətdə olan bölgələrinin, əsasən də, Bakı şəhəri və Abşeron yarımadasının ətraf mühitinin sağlamlaşdırılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi o dövrdə mühüm işlər görüb.

Əldə edilən məlumata görə, Heydər Əliyev Prezident təyin olunandan sonra Abşeron yarımadasının su təchizatının əsası qoyulmağa başlanıb. Su qıtlığını nəzərə alaraq, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Kür-Bakı su kəmərinin tikintisinə başlanılıb. Hər zaman xalqı mühüm məsələlərin həllinə istiqamətləndirməyi bacaran Heydər Əliyev "İctimai tikinti" üsulu ilə Kür su kəmərinin çəkilişini başa çatdırdı.

Mövcud məlumata görə, bu işlərin birinci hissəsi 1970-1971-ci illərdə başa çatdırılıb və I Kür su şəbəkəsi istifadəyə verilib. Xüsusilə diqqətəlayiq haldır ki, 1975-1978-ci illərdə Ceyranbatan su qurğusunda aparılan yenidənqurma işləri ərazinin su təminatını xeyli yaxşılaşdırmış, şəhər sakinlərini əlavə su ilə təmin etmişdir. Bu məqsədlə II Kür su kəmərinin çəkilməsi qərara alınıb. I Kür su kəmərinə paralel olaraq 1978-1988-ci illərdə II Kür su kəməri sistemi də tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin tükənməz səyləri nəticəsində II Kür su kəmərinin çəkilib başa çatdırılması yeni salınmış Günəşli, Əhmədli və Hövsan qəsəbələrini su ilə təmin etməyə imkan verirdi. Heydər Əliyevin "Bakını yaşıl ölkəyə çevirək" çağırışı və təşəbbüsü su təchizatı sahəsində böyük uğurların nəticəsi kimi reallaşdı. Qeydlərə görə, 1970-ci ilə qədər Bakıda 3000 hektara qədər yaşıllıq sahəsi var idi. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə yaşıllıqların sahəsi 3 mindən 17 min hektara çatdırılıb. Ötən əsrin 70-ci illərində ekoloji tarazlığın tənzimlənməsində yaşıllaşdırmanın mühüm roluna böyük önəm verən Heydər Əliyev özünün müxtəlif layihələrində ilin sonunadək yaşıllıqların 35-40 min hektara çatdırılmasını qarşıya məqsəd qoyub [4].

İnsanlar min bir dərdin dərmanı olan ana təbiətə də eyni həssaslıqla yanaşmalı, qarşılıqlı hörmət və məhəbbət göstərməlidirlər. Hər bir vəziyyətdə olduğu kimi, burada da xalqımızın Ulu Öndəri Heydər Əliyevdən dərs almaq, onun məsləhətlərindən bəhrələnmək faydalı olar. Bu təkliflərdə ağacların, yaşıllığın, təmiz və saf ekologiyanın insanlara xidmət etdiyi və özlüyündə qiymətli olduğu açıq şəkildə görünür.

Heydər Əliyevin sosial-iqtisadi siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev öz fəaliyyətində ölkəmizin ekoloji durumuna xüsusi diqqət və qayğı göstərir. Dövlət müstəqilliyinin bərpasından ötən iyirmi il ərzində aparılan uğurlu dövlət siyasəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Müstəqil

dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli yaranmış, makroiqtisadi sabitlik qorunub saxlanılmış və ölkədə iqtisadi inkişafın dayanıqlılığı təmin edilmişdir.

Son illər əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirərək, qeyri-neft sektorunun, infrastruktur sahələrinin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması, ekoloji təhlükəsizliyin təmin olunması və digər məsələlərin həlli istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirmişdir.

Bu gün də Ümummilli Liderimiz Heydər Əliyevin tövsiyələri rəhbər tutularaq, müstəqil Azərbaycan Respublikasının zəngin təbiətini, təbii sərvətlərini qorumaq və bərpa etmək üçün vaxtilə başlanılmış işlər davam etdirilir, bu istiqamətdə yeni-yeni layihələr həyata keçirilir, ekoloji problemlərin həllinə cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti cəlb olunmaqla dövlətin müəyyənləşdirdiyi bir sıra strateji əhəmiyyətə malik ekoloji siyasət reallaşdırılır [5].

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə dövlətin ekoloji siyasətini prioritet sahə kimi iqtisadi inkişafla paralel diqqətdə saxlamasını onun ekologiya və ətraf mühitin mühafizəsinə olan münasibətinin təzahürü kimi qiymətləndirmək olar.

Ulu Öndərin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə sənaye sahələri xüsusi inkişaf yolu keçmişdir. Bunlardan neft maşınqayırma sənayesini, kimya sənayesini və energetikanın inkişafını xüsusi qeyd etmək olar.

Uzun illər ərzində yaranmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən və davamlı inkişaf prinsiplərinə əsaslanan 5 Milli və Dövlət Proqramı təsdiq edilərək icrasına başlanılmış, respublikamızda mövcud olan qoruq və yasaqlıqların əraziləri genişlənmiş, milli parklar yaradılmış, ətraf mühitin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Müasir ekoloji vəziyyətin sosial proseslərin bütün bəşəriyyət baxımından təhlili aspektində öyrənilməsi çox vacibdir. Bununla əlaqədar olaraq "Ağac ək!" layihəsi ekoloji vəziyyəti yaxşılaşdırmaqda mühüm rol oynayır. Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, ətraf mühitə xidmət edən bu layihə çərçivəsində ölkədə yüzlərlə hektar ərazi yaşıllaşdırılıb.

Heydər Əliyevin ekoloji siyasəti haqqında çox geniş məlumat vermək olar. Aldığımız bütün məlumatlar nəticəsində bir daha əmin olduq ki, Heydər Əliyev Azərbaycan ekologiyasının, təbiətinin əvəzsiz müdafiəçisi və qoruyucusudur. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi ekoloji siyasət bu gün öz bəhrəsini verir.

**Ədəbiyyat:**


1. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. (2018). Bakı: Azərnəşr, 152 s.
2. Əliyev H. (2019). Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı: Azərnəşr, 312 s.
3. Əliyev İ. (2017). İnkişaf məqsədimizdir. İyirmi ikinci kitab. Bakı: Azərnəşr, 34 s.
4. Hacıyev İ. (2019). Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Bakı: Əcəmi, 290 s.
5. Qasımov C.Y., Ələsgərova F.Q. (2020). Azərbaycanın sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik: Dərs vəsaiti. Bakı: Əcəmi, 188 s.